

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 196 (21.857)

*17 oktyabr 2017-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrədə təşkil edilmiş görüşünə gəlib.

Oktyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Serj Sarkisyan arasında görüş keçirilib.

Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak ediblər.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına səfəri başa çatıb.



## Darıdağ Arsenli Su Müalicəxanasının yenidən təşkili haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Darıdağ Arsenli Su Müalicəxanası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Darıdağ Arsenli Su Müalicəxanasına çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla Darıdağ Arsenli Su Müalicəxanasının istifadəsində olan əmlak və avadanlıqların bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin balansına verilməsini təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı zəruri tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 oktyabr 2017-ci il*

## Naxçıvan şəhərində yeni məscid binası tikilir





Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlərin qorunub-yaşadılması və təbliği istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika ərazisindəki dini-mədəni abidələr bərpa olunur, yeni məscidlər tikilir, dindarların ibadəti üçün hərtərəfli şərait yaradılır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi bu tədbirlərin əhatə dairəsini xeyli genişləndirmişdir. Hazırda Naxçıvan şəhərində yeni məscid binası inşa olunur.

Oktyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məscid binasının inşa olunduğu əraziyə gəlmiş, tikinti işlərinin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, məscid binası ibadət zalından, 40 metrlik iki minarədən, qızlar və oğlanlar üçün iki mədrəsədən və kitabxanadan ibarət olacaqdır. Hazırda minarələrin və günbəzlərin tikintisi aparılır. 15 günbəzli məsciddə eyni vaxtda 2 min nəfər ibadət edə biləcəkdir.

Ərazidə Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura üçün ikimərtəbəli inzibati bina və ikimərtəbəli mərasim binası da inşa olunur. İnzibati binada iş otaqları, tədbirlər zalı, kəbin otağı, kitabxana və bufet istifadəyə veriləcəkdir. Mərasim binasında isə hər biri 224 yerlik iki zal fəaliyyət göstərəcəkdir.

Məscid binasının həyətində abadlıq işləri aparılacaq, mərkəzi isitmə sistemi qurulacaq və dəstəmaz yerləri yaradılacaqdır.

Ali Məclisin Sədri məscid binasının islami dəyərlərə uyğun inşa olunması, tikintidə keyfiyyətə və mühəndis-texniki tələblərə ciddi riayət olunması, bununla yanaşı ərazidə abadlıq işlərinin aparılması barədə də tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Norveç Krallığının ölkəmizdəki səfiri ilə görüşmüşdür



Oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Norveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bard İvar Svendsen ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlayaraq demişdir ki, Azərbaycan-Norveç əlaqələrinin əsası 1992-ci ildə qoyulmuş, ötən dövrdə hər iki ölkədə səfirliklər fəaliyyətə başlamış, iqtisadi və qeyri-hökumət təşkilatları ilə əlaqələr sahəsində səmərəli əməkdaşlıq qurulmuşdur. Azərbaycanın neft layihələrinin həyata keçirilməsində Norveç Krallığının iştirakını diqqətə çatdıran Ali Məclisin Sədri bunu hər iki ölkə arasındakı əməkdaşlığın nəticəsi kimi dəyərləndirmişdir. Ali Məclisin Sədri ölkələrimiz arasındakı münasibətlərə uyğun olaraq Naxçıvan-Norveç əlaqələrinin qurulduğunu bildirmiş, ali təhsil müəssisələri arasında, eləcə də kənd təsərrüfatı sahəsində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırmışdır.

Səfir Bard İvar Svendsen səmimi qəbula görə minnətdarlıq etmiş, ölkəmizdə fəaliyyət göstərməkdən və Naxçıvana səfərindən məmnunluğunu bildirmişdir. Naxçıvan Muxtar Respublikası ilə bir çox sahələrdə əməkdaşlıq üçün yaxşı imkanlar olduğunu bildirən səfir ikitərəfli əlaqələrin inkişafında səylərini artıracağını qeyd etmişdir.

Görüşdə gələcək əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulunun vəziyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir: Muxtar respublikada ali, orta ixtisas və orta təhsilin inkişafı ilə bağlı mühüm işlər görülür. Bütün təhsil pillələri üzrə müasir tədris şəraiti yaradılmış, ixtisaslar aid təşkilatlara hamiliyə verilmiş, kadr hazırlığı təmin edilmişdir. Hazırda muxtar respublikanın ali və orta ixtisas təhsili məktəblərində 100-dən çox ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Ona görə də ixtisaslı kadrlara olan tələbatın yerli mütəxəssislər hesabına ödənilməsi daim diqqət mərkəzində saxlanılmalı, ali və orta ixtisas təhsili müəssisələrinin potensialından səmərəli istifadə olunmalıdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək demişdir ki, 2017-ci ildə ümumtəhsil məktəblərini 2973 məzun bitirmiş, onlardan 1496-sı ali təhsil müəssisələrinə, 239-u müxtəlif ali hərbi və xüsusi təyinatlı ali məktəblərə qəbul olunmuşdur. Ali məktəblərə qəbul olan məzunların 289-u imtahanlarda 500-700 arası bal toplamış, onlardan 3-ü Prezident təqaüdünə layiq görülmüşdür. 2017-ci ildə abituriyentlərdən 925-i Naxçıvan Dövlət Universitetinə, 196-sı "Naxçıvan" Universitetinə, 208-i isə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olmuşdur. 2016-2017-ci tədris ilində ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə 629, Heydər Əliyev adına Hərbi Liseyə isə 180 nəfər qəbul olmuşdur. Muxtar respublikada təhsilin dövlət qayğısı ilə əhatə edilməsi əldə olunan uğurlu nəticələrin gələcək illərdə də davamlı xarakter alacağını şərtləndirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Muxtar respublikada bütün sahələrdə olduğu kimi təhsilin inkişafında da ardıcıl tədbirlər həyata keçirilir. Təhsilin bütün pillələri üzrə infrastruktur yenilənir, tikilən və ya əsaslı şəkildə yenidən qurulan məktəblərin maddi-texniki bazaları gücləndirilir, onlar müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunur, məktəblərlə muzeylər arasında interaktiv dərslər keçirilir. Ümumtəhsil məktəblərində olduğu kimi, ali və orta ixtisas təhsili məktəblərində də müasir tədris metodlarının tətbiqinə xüsusi diqqət yetirilir. Məktəblər aid təşkilatlara hamiliyə verilir, elmi dərəcəsi olan müəllimlərin ümumtəhsil məktəblərində nümunəvi dərsləri təşkil edilir, dərs proseslərində elektron lövhələrdən istifadəyə üstünlük verilir, vahid geyim formaları tətbiq olunur. Bununla yanaşı ali və orta ixtisas təhsili məktəbləri üçün yeni binalar və tədris korpusları tikilir və ya əsaslı şəkildə yenidən qurulur, tələbata uyğun ixtisasların açılması təmin edilir.

Ali Məclisin Sədri demişdir: Bu gün istər ali, istərsə də orta ixtisas məktəbləri ən müasir təhsil şəraitinə malikdirlər. Naxçıvan Müəllimlər İnstitutu üçün isə yeni tədris korpusu inşa olunur. Bir sözlə, ali və orta ixtisas təhsili məktəblərinin normal fəaliyyətləri üçün bütün şərait yaradılmışdır. Lakin yaradılan şəraitdən səmərəli istifadə olunmur. Əgər 2016-cı ildə məzunlarımızın 1853 nəfəri, yaxud 90,4 faizi muxtar respublikadakı ali və orta ixtisas təhsili məktəblərini seçmişdirsə, 2017-ci ildə 1782 nəfəri, yaxud 87,2 faizi muxtar respublika ali və orta ixtisas təhsili məktəblərini seçib. Artıq 3 ildir ki, ali və orta ixtisas təhsili məktəblərinin elmi dərəcəli müəllimlərinin ümumtəhsil məktəblərində nümunəvi dərsləri təşkil edilir. Bu, şagird seçimini tənzimləmək üçün də əlavə imkandır. Nümunəvi dərs keçən müəllim təhsillə yanaşı, şagirdlərdə təmsil etdiyi ali və ya orta ixtisas təhsili məktəbinə maraq da oyada bilər. Bundan əlavə ali və orta ixtisas təhsili məktəbləri dərs prosesinə mane olmamaq şərti ilə yuxarı sinif şagirdləri üçün "açıq qapı" günləri, tanışlıq ekskursiyaları da təşkil edə bilərlər. Bu gün ali və orta ixtisas təhsili məktəblərində muxtar respublikanın tələbatına uyğun ixtisaslar üzrə kadr hazırlığı aparılır. 2017-2018-ci tədris ili üçün keçirilən qəbul imtahanında muxtar respublikanın ali və orta ixtisas təhsili məktəblərində 16 ixtisas üzrə qəbul 50 faizdən aşağı olmuş, ümumilikdə isə tələbə qəbulu üzrə plan yerlərinin 13 faizi boş qalmışdır.

Ali Məclisin Sədri demişdir: Hər il xarici ölkələrin məktəbləri muxtar respublikadan olan məzunları müxtəlif vədlərlə öz ölkələrində təhsilə cəlb edirlər. Təəssüf ki, o məktəblərin təyinatı və təhsil səviyyəsi barədə məzunlarımızda kifayət qədər məlumat olmur. Bu məktəblərlə müqayisədə daha yüksək təhsil və sosial şəraitə malik olan muxtar respublika ali məktəblərinin rəhbərləri isə xarici ölkələrdən tələbə təşviqi məsələsində gözləmə mövqeyində dayanırlar. Nəzərə almaq lazımdır ki, əcnəbi vətəndaşların muxtar respublikanın təhsil müəssisələrində təhsil almaları üçün ən müasir təhsil standartları və şərait mövcuddur. Əcnəbi tələbələrin ali təhsil müəssisəsində təhsil alması bir tərəfdən bu təhsil müəssisəsi üçün əlavə maliyyə dəstəyidirsə, digər tərəfdən Naxçıvanın tanıdılmasına və məktəbin reytinqinə də öz təsirini göstərir. Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutu bu sahədə fəaliyyətlərini gücləndirməli, əcnəbi tələbələrin təhsil müəssisələrinə cəlbi istiqamətində zəruri işlər görməlidirlər.

Qeyd olunmuşdur ki, müasir dövrdə hər bir ali və orta ixtisas təhsili məktəbi daha çox tələbənin cəlb olunmasına çalışmalıdır. Çox təəssüf ki, muxtar respublikanın təhsil müəssisələrində qabaqcıl ali təhsil müəssisələrindən geri qalmayan müasir infrastrukturun yaradılmasına baxmayaraq, bu istiqamətdə fəaliyyət zəifdir. Tələbə təşviqinə təsir edən əsas amillərdən biri də təhsil müəssisəsindəki tədrisin səviyyəsidir. Buna görə də ali və orta ixtisas təhsili məktəblərində müasir tədris metodlarının tətbiqinə üstünlük verilməli, kadr hazırlığına diqqət artırılmalı, tədris və istehsalat təcrübələrinin keçirilməsində hami təşkilatların bazasından və imkanlarından səmərəli istifadə olunmalıdır. 2017-2018-ci tədris ilində qeyd olunan istiqamətlərdə fəaliyyət daha da gücləndirilməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*17 oktyabr Yoxsulluqla Beynəlxalq Mübarizə Günüdür*

# Muxtar respublikada əhalinin sosial rifahı yüksəlmişdir

***Birləşmiş Millətlər Təşkilatının 1992-ci il 22 dekabr tarixli qərarı ilə 17 oktyabr dünyada Yoxsulluqla Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur.***

1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra siyasi böhran və iqtisadi tənəzzül qısa zaman ərzində aradan qaldırılmış, ictimai-siyasi sabitlik bərqərar olmuş, iqtisadiyyatda mövcud geriləmə dayandırılmış və yeni inkişaf mərhələsinə keçid təmin edilmişdir. Keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda ulu öndərin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət bütün sahələr üzrə inkişafı təmin etməklə yanaşı, yoxsulluğun azaldılması üçün də ciddi zəmin yaratmış, yoxsulluq səviyyəsinin minimum həddə endirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yoxsulluqla mübarizəni əsas istiqamət elan edərək əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ölkədə yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirməkdədir. Ölkə başçısının 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" ölkədə iqtisadi və sosial sahədə müşahidə olunan müsbət meyillərin, o cümlədən əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması sahəsində tədbirlərin davam etdirilməsini təmin etmişdir.

Naxçıvan Muxtar Respublikasında da davamlı iqtisadi islahatlar iqtisadiyyatın dinamik inkişafını, makroiqtisadi göstəricilərin artımını, əhalinin rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasını təmin etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası bu sahədə görülən işlərin davamlılığını təmin etmiş, muxtar respublikanın iqtisadi cəhətdən daha da qüdrətlənməsinə yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" məşğulluq siyasətinin əsaslarını müəyyən etməklə, əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsinə, müasir iqtisadi reallıqlar nəzərə alınmaqla əmək ehtiyatlarının əmək bazarına uyğunlaşdırılmasına və işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsinə yeni imkanlar yaradır.

Dövlət Proqramının icrası ilə bağlı muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılır, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə müəssisələrdə sorğu keçirilir. Bununla yanaşı, kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları, əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kursları təşkil olunur.

Muxtar respublikada son 10 il ərzində sahibkarlıq fəaliyyəti genişlənmiş, yeni istehsal müəssisələri fəaliyyətə başlamış, sənaye sahəsində 13,4 dəfə, kənd təsərrüfatında 4 dəfə, əsas kapitala yönəldilən investisiyalar 5 dəfə, informasiya və rabitə sektorunda 4,7 dəfə artım olmuşdur. Bu dövrdə 52 min 324 yeni iş yeri açılmış, əhalinin gəlirləri 5,1 dəfə, əməkhaqqı 3,7 dəfə artmışdır.

Sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar nəticəsində sosial müdafiəyə ehtiyacı olan insanlara, o cümlədən əlillərə, şəhid ailələrinə, tənha ahıllara, habelə sağlamlıq imkanları məhdud uşaqlara göstərilən sosial xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, bu istiqamətdə həyata keçirilən tədbirlər fasiləsiz xarakter almışdır. Sağlamlıq imkanları məhdud şəxslərin reabilitasiyası məqsədilə də bir sıra tədbirlər görülmüşdür.

2017-ci ilin 9 ayı ərzində 132 nəfərə müxtəlif texniki reabilitasiya vasitələri verilmiş, 243 nəfərə protez-ortopedik xidmət göstərilmiş, respublikamızın müxtəlif sanatoriya və pansionatlarında müalicə və istirahətləri məqsədilə 422 nəfər göndərişlərlə təmin olunmuşdur. Müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi də diqqət mərkəzindədir. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı, Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək sağlamlıq imkanları məhdudlaşan, 1941-1945-ci illər müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərdən 456 nəfər minik avtomobili ilə, 211 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evi ilə təmin olunmuşdur.

Aztəminatlı ailələrin sosial problemlərinin həlli, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədilə 2006-cı ildən ötən dövr ərzində aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımı ödənişi həyata keçirilmişdir. Ehtiyac meyarının davamlı olaraq artmasına baxmayaraq, sosial yardım alan əhalinin sayı ilbəil azalmışdır. Buna səbəb muxtar respublikada yaradılan yeni iş yerləri hesabına aztəminatlı ailələrdə əmək qabiliyyətli ailə üzvlərinin fəal əməyə cəlb olunmasıdır. Uzun müddət ünvanlı dövlət sosial yardım alan aztəminatlı ailələrin sosial cəhətdən reabilitasiyasına nail olmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən fərdi təsərrüfatlarını qurmaq üçün 23 aztəminatlı ailənin hər birinə bir ədəd yanında balası olan inək verilmişdir.

Muxtar respublikada iqtisadi və sosial əhəmiyyətli infrastruktur layihələrinin icrası, məşğulluq səviyyəsinin yüksəldilməsi, sosial xidmətlərin həcminin və keyfiyyətinin artması, makroiqtisadi sabitliyin ilbəil qorunub saxlanması bütün sahələrin davamlı inkişafını bundan sonra da təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamının imzalanmasından ötən dövr ərzində muxtar respublikanın təhsil və mədəniyyət müəssisələrində məqsədyönlü tədbirlərə başlanılıb. Guşələr yaradılıb, diskussiyalar təşkil olunub, bir neçə kitabın müzakirəsi keçirilib. Həmin tədbirlərin davamı kimi "Şərq qapısı" qəzetinin redaksiyasında muxtar respublikanın tanınmış ziyalıları, təhsil və mədəniyyət işçilərinin iştirakı ilə keçirilən dəyirmi masada görülmüş və gələcəkdə görüləcək tədbirlər barədə geniş söhbət aparılıb. Maraqlı olacağını nəzərə alıb həmin söhbəti oxucularımıza təqdim edirik.***

# Kamilləşmə, dünyanı və özünüdərk yolu mütaliədən keçir




***Muxtar Məmmədov – "Şərq qapısı" qəzetinin məsul katibi:***

– Adıçəkilən sərəncamın imzalanması muxtar respublika ziyalıları, mütaliəsevər oxucu auditoriyası tərəfindən sevinclə qarşılanıb, yüksək dəyərləndirilib. Bugünkü söhbətimiz də sərəncamın əhəmiyyəti barədədir. Dəvətimizi qəbul edib dəyirmi masada iştirakınıza görə redaksiya kollektivi adından minnətdarlığımızı bildirir, belə bir tədbirin keçirilməsində hamınıza fəallıq arzulayırıq.

***Hüseyn Həşimli – professor, filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi:***

– Ulu öndər Heydər Əliyev kitabın, kitabxananın əhəmiyyətini yüksək dəyərləndirirdi: ***"Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir".*** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı adıçəkilən sərəncam məhz gənc nəsli mənəviyyat, bilik, zəka mənbəyi olan kitabxanalara, faydalı kitabları mütaliə etməyə dəvət edən qiymətli tarixi sənəddir.

Qədim yunan mütəfəkkiri Sokrat yazırdı: "Mütaliə bir cəmiyyətin gündəlik vərdişinə çevrilsə, həmin cəmiyyət xoşbəxt olar". Doğrudan da, bütövlükdə cəmiyyətin və onun üzvü olan hər bir insanın həyatında mütaliənin çox böyük əhəmiyyəti var. İnsan şəxsiyyətinin yüksək mənəvi dəyərlər əsasında formalaşmasında, kamilləşməsində müvafiq kitabları mütaliə etmək, oxuyub öyrənmək əvəzolunmaz rola malikdir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin sərəncamı təkcə bu gün üçün deyil, həm də gələcək inkişafımız üçün böyük tarixi əhəmiyyət daşıyır.

***Nizami Rəhimov – Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi:***

– "Oxunması zəruri olan kitablar haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin, tarixinin və ədəbiyyatının əsasını təşkil edən qiymətli əsərlərin mütaliəsinin təşviqi gənclərimizin dövlətçilik təfəkkürünün və milli məfkurənin formalaşmasında mühüm rol oynayacağı şəksizdir. Bu da bir həqiqətdir ki, hər bir millət yalnız özünü tanımaqla qalmamalı, əhatəsindəki millətləri də tanımalıdır. Ortaq tarix, ortaq mədəniyyət dairəsinə daxil olmaq millətləri də insanlar kimi yaxınlaşdırır, bir-birini tanımağa vadar edir, zəngin dünyagörüş formalaşdırır. Necə ki Azərbaycan xalqının görkəmli şairi Nizami Gəncəvinin irsi bir çox Şərq və Qərb xalqlarının dünyagörüşünün müəyyənləşməsində rol oynayıb, onun əsərlərindən faydalanan bir çox müəlliflər eyniadlı əsərlər yaradıblar. Ona görə də siyahıda yer alan dünya klassiklərinin əsərləri bu baxımdan böyük əhəmiyyətə malikdir.

***Əli Novruzov – Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin direktoru:***

– Bu gün bütün kitabxanalarımız öz zəngin fondları ilə qapılarını mütaliəsevərlərin üzünə açıb. Belə mədəniyyət müəssisələrindən istənilən əsəri əldə edib oxumaq olar. Klassik və müasir Azərbaycan ədəbiyyatı ilə yanaşı, dünya klassiklərinin əsərlərinin latın qrafikası ilə çap olunaraq bütün kitabxanalara pulsuz paylanılması, bu ədəbiyyatlardan səmərəli istifadəyə şərait yaradılması onların mütaliə imkanlarını genişləndirib. Qeyd etmək lazımdır ki, mütaliə yolu ilə insan müsbət keyfiyyətlərə malik olmaqla yanaşı, həm də onda mütaliə mədəniyyəti formalaşır. Sərəncamın bir əhəmiyyəti də məhz bu amillə bağlıdır.

***Südabə Süleymanova – Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının şöbə müdiri:***

– Kitabı bəşəriyyətin ən mühüm kəşfi adlandıranlar yanılmayıblar. Kitablar insanın tərbiyə və təhsilində, intellektual inkişafında, biliklərə yiyələnməsində, cəmiyyətin əldə edib topladığı biliklərin, təcrübənin, vərdişlərin, habelə mənəvi sərvətlərin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır.

Hazırda kitabxanada oxunması zəruri olan kitablardan ibarət sərgi təşkil etmişik. Bir metodik mərkəz kimi başqa kitabxanalara da bu işdə əməli və metodik tövsiyələr verilir. Muxtar respublikamızın müxtəlif strukturlarında fəaliyyət göstərən kitabxanaların zəngin fondunu gənc nəslə aşılamaq, onların mütaliəsinə düzgün rəhbərlik etmək, oxunması zəruri olan kitabları təbliğ etmək biz kitabxanaçıların mühüm və ən vacib işi olmalıdır.

***Aygün Orucova – AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru:***

– "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam uzun illərdir, Naxçıvanda elmin, təhsilin, mədəniyyətin inkişaf etdirilməsini, elmlə təhsilin və istehsalatın, mədəniyyətlə təhsilin sıx əlaqəsini nəzərdə tutan kompleks şəkildə düşünülmüş tədbirlərin yeni mahiyyət daşıyan bir mərhələsinin başlanğıcıdır.

***Muxtar Məmmədov:*** – İndiyədək keçirilmiş tədbirlərdə onu müşahidə etmişəm ki, belə tədbirlər tədbir xatirinə təşkil olunmur. Xüsusilə də ziyalılarımız dərindən dərk edirlər ki, vaxtında atılmış bu zəruri addım gələcəyimizə hesablanıb. Siyahıya elə əsərlərin adları salınıb ki, bu əsərləri mütaliə etməklə sabahımız üçün layiqli vətəndaşlar yetirməkdə onlar böyük əhəmiyyət daşıyırlar.

***Hüseyn Həşimli:*** – Oxunması zəruri olan kitabların siyahısının çox dəqiqliklə seçildiyini, burada ən qiymətli əsərlərin yer aldığını minnətdarlıqla qeyd etmək istərdim.

Siyahının ulu öndərimiz Heydər Əliyevin "Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti" ilə başlanması təsadüfi deyil. Ümummilli liderin bu müraciəti xalqımızın keçdiyi tarixi yolun təhlil olunub dəyərləndirilməsi, gələcək vəzifələrə diqqət yönəldilməsi baxımından çoxəhatəli və konseptual bir əsərdir. Onunla tanış olan hər bir vətəndaş, o cümlədən hər bir yeniyetmə, hər bir gənc, sözün əsl mənasında, vətənpərvərlik dərsi alır.

Siyahıda Azərbaycan şifahi və yazılı ədəbiyyatının, klassik pedaqoji və publisistik irsin gənc nəslin təlim-tərbiyəsində böyük əhəmiyyət daşıyan seçmə nümunələrinin yer alması, ilk növbədə, diqqəti çəkir. Dünya ədəbiyyatına böyük töhfələr bəxş etmiş Nizami Gəncəvi, Nəsirəddin Tusi, Seyid Əzim Şirvani, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və başqa ustad sənətkarların müvafiq əsərlərinin mütaliəsinin tövsiyəsi bu baxımdan təqdirəlayiqdir.

Türk-islam dünyasının tarixi keçmişini, mənəvi-əxlaqi dəyərlərini əks etdirən Faruk Sumerin "Oğuzlar", Yusif Balasaqunlunun "Qutatqu-bilik", Rəşidəddin Fəzlullahın "Oğuznamə", Sədi Şirazinin "Gülüstan" əsərləri, "İslamda müdrik kəlamlar" toplusu da böyüməkdə olan nəsillərin formalaşmasında geniş tərbiyəvi imkanlara malikdir.

Həmin siyahıda Qərb klassiklərinin əsərləri də çox dəyərli nümunələrlə təmsil olunur. Teodor Drayzerin "Dahi", Cek Londonun "Həyat eşqi", Ernest Heminqueyin "Qoca və dəniz", Gi de Mopassanın "Gombul", Nikolay Ostrovskinin "Polad necə bərkidi", Moris Meterlinkin "Arıların həyatı", "Göy quş" və sair əsərlərin mütaliəsinin verəcəyi böyük tərbiyəvi əhəmiyyət aşkardır. ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə məktubu, Nikolo Makiavellinin "Hökmdar" əsəri və sair də bu baxımdan ayrıca qeyd olunmalıdır.

Bütövlükdə mütaliə materialları seçilərkən yeniyetmə və gənclərin mənəvi tərbiyəsinin əsas istiqamətləri, onların hərtərəfli formalaşması işinin ən müxtəlif aspektləri nəzərə alınıb.

***Nizami Rəhimov:*** – Milli məfkurəmiz dəyişməz, sabit milli dəyərimizdir ki, buraya da mədəniyyət, tarixi dünyagörüş, ədəbiyyat, xalqın hikmət xəzinəsi daxildir. Bu dəyərlərin dəyişməzliyi ondan ibarətdir ki, min illər keçsə belə, insanın dünyaya baxışını formalaşdıran, ona millət özəlliyi qazandıran, tarixi şüurunda silinməz iz buraxan həmin əsərlər öz aktuallığını qoruyub saxlayır. Əsrlər keçsə də, gələcək nəsillər ulu Dədə Qorqudun hikmət bulağından su içəcək, Nəsiminin, Füzulinin, Nizaminin şeirləri ilə özünü dərk edəcək, "Oğuznamə"lərlə babalarını tanıyacaq, onlar kimi qorxmaz, mərhəmətli, qəhrəman olmağa çalışacaqlar.

***Əli Novruzov:*** – Adıçəkilən sərəncam vaxtında imzalanmış dövlət sənədi kimi təhsil müəssisələrinin qarşısında çox mühüm vəzifələr qoyub. Sirr deyil ki, şagirdlərin kamil insan kimi formalaşması məktəbin başlıca funksiyasıdır. Bu funksiyanın yerinə yetirilməsində adıçəkilən sərəncam da töhfəsini verəcək. Bu qiymətli dövlət sənədinin imzalanmasından sonra bizim məktəbdə də bir sıra işlər görülüb, kitabxanada guşə yaradılıb. Hazırda gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən bu kitabların müzakirəsi aparılır və bu tədbirlər davam etdirilir. İlk olaraq "Kitabi-Dədə Qorqud" dastanının müzakirəsini keçirmişik. Tədbirdə iştirak edən şagirdlərə dastanda tərənnüm edilən vətənpərvərlik, torpağa məhəbbət, düşmənə nifrət, igidlik, milli və mənəvi dəyərlər barədə söhbət açılıb.

***Aygün Orucova:*** – Düşünürəm ki, kiçik yaşlarından şagirdləri mütaliəyə maraqlandırmaq üçün məktəbəqədər təhsil müəssisələrindən başlamaq lazımdır. Qiraət şifahi şəkildə, yəni müəllimin bütün qrup üçün uşaq ədəbiyyatı nümunələrindən mütaliəsi ilə başlamalı, bu proses ibtidai və yuxarı siniflərdə müəllimlərin tətil müddətində oxumaq üçün tövsiyə etdiyi əsərlərlə şagirdlər tərəfindən davam etdirilməlidir. Burada onu da xüsusi olaraq qeyd etməyi lazım bilirəm ki, mütaliəyə şagirdləri cəlb etmək üçün repetitorların da üzərinə müəyyən məsuliyyət düşür. Çünki humanitar elmlər yönümlü ixtisaslarda repetitorlar "Ədəbiyyat müntəxəbatı" ilə kifayətlənirlər. Evdə isə bu məsuliyyət, təbii ki, valideynlərin üzərinə düşür. Valideyn, ilk növbədə, özü mütaliə ilə məşğul olmalı, öz övladı üçün, yaxşı mənada, nümunə olmalı və bunun faydaları haqqında da söhbətlər aparmalıdır.

***Muxtar Məmmədov:*** – Onu da xüsusi vurğulamağa ehtiyac duyuram ki, sərəncamın üçüncü bəndində bu qəbildən olan kitabların siyahısının zənginləşdirilməsi nəzərdə tutulub. Bu isə çox mühüm məqam olmaqla gənc nəslin sağlam prinsiplər əsasında formalaşdırılması işində mütaliənin imkanlarından istifadənin ardıcıl və daimi xarakter daşıyacağını, getdikcə genişlənəcəyini göstərir.

***Hüseyn Həşimli:*** – Sərəncamda deyildiyi kimi, oxunması zəruri olan kitablar gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edəcəkdir. Sərəncamın imzalanmasından ötən müddət ərzində görülən işlər, o cümlədən təhsil və mədəniyyət müəssisələrində təşkil olunmuş sərgilər, yaradılmış guşələr, keçirilən kitab müzakirələri, bütövlükdə, mütaliəyə marağın gücləndirilməsinə xidmət edir.

***Aygün Orucova:*** – Mütaliəyə marağın xeyli azaldığı və sosial şəbəkələrə, müxtəlif ziyanlı internet oyunlarına meylin artdığı bir zamanda belə sərəncam tamamilə ehtiyacdan, zərurətdən, dövrün tələbindən yaranıb. Bu gün mütaliəyə marağın azalması bütün dünyanı əhatə edən qlobal problemdir.

***Nizami Rəhimov:*** – Bəhs olunan sərəncam mədəniyyət işçilərinin qarşısında yeni vəzifələr qoyur. Gənc nəslin dünyagörüşünün formalaşmasında birbaşa iştirak edən mədəniyyət işçiləri oxunması zəruri hesab edilən əsərləri özləri də oxumalı və həmin əsərlərdəki ideyaları gənc nəslə aşılamağa səy göstərməlidirlər.

***Hüseyn Həşimli:*** – Böyük maarifçi Həsən bəy Zərdabinin müdrik kəlamı ilə fikrimi tamamlamaq istərdim: "Yaxşı kitab çox qiymətli xəzinədir". Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamı da məhz bu qiymətli xəzinəni hamının mənəvi sərvətinə çevirmək vəzifəsinə yönəlməklə böyük əhəmiyyətə malikdir.

***Muxtar Məmmədov:*** – Dəyirmi masada səsləndirilən fikirlərdən belə qənaətə gəlmək olar ki, adıçəkilən sərəncamdan sonra gənc nəslin mütaliəyə marağının artırılması istiqamətində əhəmiyyətli addımlar atılır. Əminliklə deməl olar ki, bu sərəncam gənclərin mütaliə mədəniyyətinin formalaşdırılmasına müsbət təsirini göstərəcəkdir.

**Hazırladı: ✍ Muxtar MƏMMƏDOV**

# Xaraba Gilan ekspedisiyasının uğurlu nəticələri



AMEA Naxçıvan Bölməsində Xaraba Gilan arxeoloji ekspedisiyasının yekununa həsr olunmuş tədbirdə çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, on ildən artıqdır ki, Naxçıvan Muxtar Respublikasında Beynəlxalq və Respublika səviyyəli arxeoloji ekspedisiyalar aparılır. Tədqiqatlar zamanı Naxçıvanın qədim tarixi ilə bağlı əhəmiyyətli faktlar aşkar olunur.

Akademik Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə bu il də bölgənin müxtəlif ərazilərində qazıntılar aparıldığını qeyd edərək bildirib ki, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimlinin rəhbərliyi ilə iki aydan çoxdur, Ordubad ərazisində fəaliyyət göstərən Xaraba Gilan arxeoloji ekspedisiyası tədqiqatlarını yekunlaşdırıb.

Tədbirdə Xaraba Gilan arxeoloji ekspedisiyasının rəhbəri Bəhlul İbrahimli Naxçıvan bölgəsinin arxeoloji abidələrinin zənginliyindən danışaraq Ordubad ərazisində aparılan ekspedisiyanın nəticələri ilə bağlı ətraflı məlumat verib. O, Xaraba Gilan və onun ətrafında olan abidələrin Azərbaycan arxeologiyası üçün əhəmiyyətli olduğunu bildirərək gələcəkdə də bu ərazilərdə genişləndirilmiş tədqiqat işlərinin aparılacağını deyib.

Sonra Bəhlul İbrahimli tədqiqat zamanı aşkar olunan maddi-mədəniyyət nümunələrini – bəzək əşyalarını, qəbirləri, tikililər və sümük qalıqlarını, daşlar üzərinə həkk edilmiş təsvirləri videogörüntü vasitəsilə tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, ekspedisiya zamanı ərazidən aşkar edilən 229 maddi-mədəniyyət nümunəsi yaxın günlərdə bölmənin Arxeologiya və Etnoqrafiya muzeyinə təqdim ediləcək.

Daha sonra arxeoloji ekspedisiyanın rəhbəri tədbir iştirakçılarının suallarını cavablandırıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Ecazkar sənətin işığında



***Hər kəs bir peşənin sahibidir, lakin bəzi sahələr də var ki, onlarla məşğul olmaq üçün xüsusi istedad lazımdır. Xüsusilə də incəsənətlə. Lakin yalnız istedadlı olmaq da kifayət etməz. Eyni zamanda çalışmaq da lazımdır.***

Budəfəki məqaləmizdə fiziki imkanı məhdud olmasına rəğmən, istedad və əzminə güvənən, öz üzərində ciddi çalışan bir şəxsdən – Sənan Salmanovdan danışacağıq. O, dünya işığından məhrum olsa da, bir çoxlarına nümunə olacaq çalışqanlıqla cəmiyyətdə istedadlı şəxs kimi özünə yer tutub.

1969-cu il təvəllüdlü Sənan Salmanov Azərbaycanın incisi sayılan Ordubadın füsunkar təbiətli Unus kəndində dünyaya göz açıb. Üç qardaşı musiqiçidir. Sənan müəllim deyir ki, qardaşlarının biri qarmon, biri nağara, digəri isə kamançada ifa edir. O, tar ifaçısı olmasına baxmayaraq, digər alətlərdə də ifa etməyi qardaşlarından öyrənib.

Sənan müəllim doğulduğu kənd haqqında deyir ki, bu yaşayış məntəqəsinin təmiz havası, gözəl mənzərəsi insana yaradıcılıq şövqü verir. Lakin təəssüf hissi ilə bildirir ki, çox sevdiyi doğma yurdunda, sadəcə, uşaqlıq illərini keçirə bilib. Sonrakı illərdə Bakıda, Gözdən əlillər üçün internat məktəbində təhsil aldığından orada yaşamalı olub. Orta təhsil ilə yanaşı, o, oxuduğu məktəbin nəzdində fəaliyyət göstərən musiqi dərnəyində bu sahənin sirlərini öyrənib. Qısa zamanda öz çalışqanlığı ilə şagirdlər arasında fərqlənən Sənan Salmanov məktəbin keçirdiyi tədbirlərdə fəal iştirak edib. O, 1986-cı ildə təhsilini əla qiymətlərlə başa vurub. Sonra isə musiqi təhsilini davam etdirməyə qərar verib. Beləliklə, bu arzu onun yolunu Mədəni Maarif Texnikumundan salıb. O, burada tar ixtisası üzrə təhsil almağa başlayıb.

...Sənan Salmanov hazırda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən "İnam" ansamblının konsertmeysteridir. Onun övladları Bənövşə və Əbülfəz də bu ansamblın üzvləridir.

Qızı Bənövşə qanun ifaçısıdır. Bənövşə deyir ki, musiqini ona sevdirən məhz elə atası olub. Kiçik yaşlarından musiqi sədalarını dinləyib zümzümə edib və zamanla o da atası kimi həyatını musiqiyə bağlamağı qərara alıb. Musiqi məktəbini bitirdikdən sonra Naxçıvan Musiqi Kollecinə, daha sonra isə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinə daxil olub, hazırda ali təhsilini davam etdirir.

Oğlu Əbülfəz isə musiqini sevməyinə baxmayaraq, bu peşəni seçməyib. İkinci ixtisas qrupu üzrə ali məktəbə hazırlaşan Əbülfəz musiqi ilə məşğul olmağı heç vaxt unutmayacağını, başqa ixtisas sahibi olmağı düşünsə də, onunla mütəmadi məşğul olacağını deyir.

Bu trio hər il 15 may – Beynəlxalq Ailə Günü münasibətilə keçirilən tədbirlərdə musiqiçi ailə olaraq iştirak edir.

Muxtar respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edən Sənan müəllim respublika əlillərinin bədii yaradıcılıq müsabiqələrinə də qatılır, mükafata layiq yerlər tutur.

Sənan Salmanov Regional İnformasiya Mərkəzində fiziki imkanları məhdud şəxslər üçün təşkil edilmiş kompüter kursunu bitirdiyindən bu sahədə də məlumatlıdır. O, hətta görmə imkanları məhdud şəxslərin mobil telefonlarına səsli proqramlar yükləyir, ondan istifadə qaydasını öyrədir.

O, hazırda Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin müəllimi kimi fəaliyyət göstərir. Onun şagirdləri ilə söhbət zamanı bildirdilər ki, onlar da musiqini özlərinə bir sənət kimi seçib, bu sənətin arxasınca getməyi düşünürlər.

*Fiziki imkanı məhdud olmaq heç nəyə maneə deyil. Sənan müəllim kimi yüzlərlə insan bunu öz bacarıq və istedadları ilə sübut edir.*

**Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin sentyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Culfa rayonu | 323485 | 41547 | 41939 | 100,9 |
| 2. | Ordubad rayonu | 383869 | 45747 | 45836 | 100,2 |
| 3. | Naxçıvan şəhəri | 865382 | 107268 | 107453 | 100,2 |
| 4. | Şahbuz rayonu | 219084 | 27404 | 27446 | 100,2 |
| 5. | Şərur rayonu | 694643 | 85085 | 85191 | 100,1 |
| 6. | Babək rayonu | 611166 | 83568 | 83656 | 100,1 |
| 7. | Sədərək rayonu | 75724 | 8816 | 8823 | 100,1 |
| 8. | Kəngərli rayonu | 240571 | 30914 | 30923 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3034072 | 606660 | 604622 | 99,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **6447996** | **1037009** | **1035889** | **99,9** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2017-ci ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 352 | 24,8 | 25,0 | 100,8 |
| 2. | Ordubad rayonu | 1468 | 104,3 | 104,7 | 100,4 |
| 3. | Culfa rayonu | 1067 | 81,7 | 82,0 | 100,4 |
| 4. | Kəngərli rayonu | 465 | 32,9 | 33,0 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 4827 | 362,0 | 362,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1859 | 132,0 | 132,0 | 100,0 |
| 7. | Babək rayonu | 2221 | 166,0 | 166,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 211 | 15,0 | 15,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 21670 | 1950,3 | 1950,3 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **34140** | **2869,0** | **2870,0** | **100,0** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 34 milyon 140 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 869 min manat olmuş, cəmi 2 milyon 870 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

*"Muzey günləri" çərçivəsində Naxçıvan Dövlət Universitetinin kollektivi "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.*

# Pedaqoji kollektiv muzey kompleksində olub

Açıq Səma Altında Muzeyi ziyarət zamanı məlumat verilib ki, xalqımızın zəngin tarixi-mədəni irsi memarlıq abidələri ilə bərabər, həm də daş abidələrdə yaşayır. Əcdadlarımızın yaratdıqları daş abidələr, xüsusilə Gəmiqaya rəsmləri başəriyyətin tarixindən xəbər verir. Muzeydə muxtar respublika ərazisindən tapılan müxtəlif dövrlərə aid daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr nümayiş olunur. Ekspozisiyadakı 450 maddi-mədəniyyət nümunəsi ulu Naxçıvanın daş yaddaşıdır.

Möminə xatın türbəsi ilə tanışlıq zamanı qeyd olunub ki, Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan bu türbə 1186-cı ildə tikilib. Nəinki Azərbaycan, bütövlükdə, İslam memarlığında seçilən kompozisiyalı türbələrdən olan Möminə xatın türbəsi sərdabə və yerüstü hissədən ibarətdir. Xalqın yaddaşında "Atabəy günbəzi" adı ilə qalan abidənin baştağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

Xan sarayında bildirilib ki, Naxçıvan xanı I Kalbalı xan Kəngərliyə və onun varislərinə məxsus olan bu saray Azərbaycanın orta əsrlər memarlığının nadir incilərindən biridir. Xüsusi memarlıq üslubunda inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan sarayı orijinal görünüşü ilə seçilir. Muzeydə Naxçıvan xanlığının və Kəngərli nəslinin tarixi ilə bağlı nəşr olunmuş kitablar, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi, məişət əşyaları – misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir.

**Səadət ƏLİYEVA**

*İdman*

# Boks üzrə şəhər birinciliyi başa çatıb



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 26-cı ildönümü münasibətilə yeniyetmələr arasında keçirilən boks üzrə Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub. Yarış Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin və Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının təşkilatçılığı ilə keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbirdə çıxış edərək Dövlət Müstəqilliyi Günü haqqında idmançılara geniş məlumat verib və onlara uğurlar arzulayıb. Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev isə çıxışında yarışın keçirilmə məqsədi və qaydaları haqqında danışıb.

Açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Babək, Ordubad və Şərur rayonlarının idmançıları da öz qüvvələrini sınayıblar.

Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 23 çəki dərəcəsində 60-a yaxın dəri əlcək sahibi mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən döyüşdə Kamran Rəsulov (24 kiloqram, Naxçıvan), Məhəmməd Məmmədov (26 kiloqram, Şərur), Əli Məmmədov (27 kiloqram, Naxçıvan), Əli Seyidov (28 kiloqram, Naxçıvan), Abasət Heydərov (30 kiloqram, Şərur), Elvin Seyidov (32 kiloqram, Ordubad), Möhsün Həsənzadə (33 kiloqram, Ordubad), Alişan İsmayılov (35 kiloqram, Şərur), Hüseyn Məmmədov (38 kiloqram, Naxçıvan), Nazim Abazərli (41 kiloqram, Naxçıvan), Malik Məmmədov (42 kiloqram, Naxçıvan), Vüsal Zeynalov (46 kiloqram, Şərur), Nizami Novruzov (47 kiloqram, Naxçıvan), Hüseyn Hüseynov (48 kiloqram, Naxçıvan), Kənan Şəfiyev (50 kiloqram, Şərur), Heydər Quliyev (52 kiloqram, Naxçıvan), Ayxan Süleymanov (54 kiloqram, Naxçıvan), Kənan İbrahimli (57 kiloqram, Ordubad), Ümid Sadiqov (58 kiloqram, Ordubad), Azər Abbaszadə (59 kiloqram, Naxçıvan), Sənan İbrahimov (60 kiloqram, Ordubad), Rəşid Sadiqov (64 kiloqram, Naxçıvan) və Məhəmməd Ələsgərov (70+ kiloqram, Naxçıvan) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

# Dama birinciliyində qalib komandalar müəyyənləşib

***Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə Naxçıvan şəhər tam orta məktəblərinin qızlardan ibarət komandalar arasında dama birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Namiq Novruzov və şəhər Təhsil Şöbəsinin əməkdaşı Şahmar Hüseynov çıxış edərək müstəqillik dövründə muxtar respublikada idmanın inkişafı istiqamətində görülən işlərdən danışıblar.

Keçirilən yarışda 16 tam orta məktəbdən 48 şagird (hər komandanın tərkibində 3 qız olmaqla) iştirak edib. Olimpiya sistemi üzrə keçirilən yarışın yekun nəticəsinə əsasən 17 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. 7 nömrəli tam orta məktəbin komandası ikinci, 9 və 5 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü yerə layiq görülüblər.

Qalib komandalar təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## İtmişdir

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Əsgərov Nəbi Əliqulu oğlunun adına olan $98^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Qasımov Hüseyn Allahyar oğlunun adına olan $164^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Bulqan kəndində yaşamış Əliyev Qadir Vəli oğlunun adına olan $940^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 822